| | |
|---|---|
| Müsədin Əhməd oğlu Namazov |  |

Müsədin Əhməd oğlu Namazov 4 avqust 1963-cü ildə Gürcüstan Respublikasının Saqareco bələdiyyəsinin Düzəyrəm kəndində anadan olub. 1970-1980-ci illərdə Düzəyrəm kənd məktəbində orta təhsil alıb. O, 1981-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinin əyani şöbəsinə qəbul olunmuş və 1986-cı ildə həmin institutu fərqlənmə diplomu ilə memar ixtisası üzrə bitirmişdir.

M.Ə. Namazov ali təhsilini tamamladıqdan sonra “Azərdölətlayhə” İnstitutunun 1 nömrəli Emalatxanasında memar kimi öz ixtisası üzrə ilk əmək fəaliyətinə başlamışdır. 2011-ci ilin dekabrından 2012-ci ilin sentyabrına kimi Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin “Azərdövləttikintilayihə” DLİ İnstitutunun baş memarı vəzifəsində çalışmışdır.O, 10 oktyabr 2012-ci ildən Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin “Azərdövləttikintilayihə” DLİ-nin direktoru təyin olunmuş və 2014-cü ilin may ayına kimi bu vəzifədə çalışaraq özünü səriştəli rəhbər kadr kimi təsdiq etmişdir.

2014-cü ilin may ayının 27-də “Azərdövlətlayihə” DBL İnstitutunun direktoru vəzifəsinə təyin olunub. Azərbaycan Memarlar İttifaqının yaradılmasının 70 illik yubileyi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Memarlar İttifaqı üzvünün “Fəxri Nişanı” (2008-ci il) ilə təltif olunub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85 illiyi münasibətilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində dövlət qulluğunda fərqləndiyinə və əldə etdiyi nailiyyətlərə görə “Fəxri Fərman” ilə təltif olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 10 illiyi (2005-2015)" yubiley medalı (2010-cu il); Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2012-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında inşaat sahəsində səmərəli fəaliyyətinə görə “Tərəqqi” medalı ilə təltif edilmişdir. Namazov Müsədin Əhməd oğlu Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə “Əməkdar Memar” fəxri adı ilə təltif edilmişdir.